17 Noyabr Milli Dirçəliş Günüdür

44 (1299) 16-22 noyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ARASINDA ƏMƏKDAŞLIQ KEYFİYYƏTCƏ YENİ SƏVİYYƏYƏ QALXIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul edib.

Dostluq və qardaşlıq münasibətlərimizin gündəliyinin çox geniş olduğunu və müxtəlif istiqamətləri əhatə etdiyini deyən Prezident İlham Əliyev iqtisadi, sənaye, o cümlədən sənaye kooperasiyası, kənd təsərrüfatı və digər sahələrdə nəzərdə tutulan birgə layihələrin önəmini qeyd edib.

Laziz Kudratov Azərbaycan və Özbəkistan prezidentləri arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxması üçün möhkəm əsas yaratdığını bildirib, hər iki dövlət başçısının qarşılıqlı səfərlərinin və görüşlərinin strateji əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd edib.

Laziz Kudratov vurğulayıb ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar və əhalinin rifah halının daha da yaxşılaşdırılması Özbəkistanda böyük sevinc doğurur.

Azərbaycan Prezidentinin qətiyyəti və möhkəm iradəsi, uğurlu siyasəti nəticəsində tarixi ədalətin bərpa edilməsinin mümkün olduğunu vurğulayan Laziz Kudratov Şuşa və Füzuliyə səfərləri zamanı orada gedən böyük yenidənqurma və bərpa işlərinin şahidi olduğunu deyib.

Görüşdə sənaye kooperasiyası, iqtisadi, ticari, nəqliyyat, logistika əlaqələrinin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparılıb.

## BELARUS MİLLİ MƏCLİSİNİN RESPUBLİKA ŞURASININ SƏDR MÜAVİNİ "BÖYÜK QAYIDIŞ" PROQRAMI BARƏDƏ MƏLUMATLANDIRILIB



Noyabrın 14-də Milli Məclis sədrinin müavini Adil Əliyev ölkəmizdə səfərdə olan Belarus Respublikası Milli Məclisinin Respublika Şurasının sədr müavini Valeri Belski ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Adil Əliyev xalqlarımızı birləşdirən ənənəvi dostluq əlaqələrindən söz açıb, bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu diqqətə çatdırıb. O, dövlətlərarası münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini, əlaqələrimizin strateji xarakter daşıdığını, qarşılıqlı faydalı münasibətlərin formalaşmasında və inkişafında dövlət başçıları arasında mövcud olan səmimi dostluq münasibətlərinin, yüksək səviyyəli dialoqun və qarşılıqlı anlaşmanın mühüm rol oynadığını vurğulayıb.

Görüşdə ikitərəfli əlaqələrimizin möhkəm müqavilə-hüquq bazasının olduğu qeyd olunub, bunun artan ticarət dövriyyəsi, iqtisadi, sosial, mədəni sahələrdə əlaqələrin inkişafına, birgə layihələrin həyata keçirilməsinə müsbət töhfə verdiyi bildirilib.

Bu gün Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və sabitliyin bərqərar olması üçün unikal tarixi fürsət yarandığını deyən Adil Əliyev bildirib ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunub. Müharibənin bitməsindən 3 il keçməsinə baxmayaraq, Ermənistan tərəfi hələ də sülh sazişini imzalamaqdan boyun qaçırır, bu isə regionda kommunikasiyaların açılmasına, sabitliyin bərqərar olmasına imkan vermir.

Qonağa Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərdə başlatdığı genişmiqyaslı bərpa-quruculuq işlərinin gedişatı barədə məlumat verilib.

## İSMAYILLIDA ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZIRLİYİNİN DOST İNKLÜZİV İNKİŞAF VƏ YARADICILIQ MƏRKƏZİNİN "DOST EVİ" FİLİALI AÇILIB

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı "DOST EVİ" də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ UĞURLA İNKİŞAF EDİR

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısında çıxış edərkən deyib.

**Prezident İlham Əliyev bildirib:**




- Ötən il mən Özbəkistana bir dövlət səfəri və iki işgüzar səfər etmişəm. Hər səfərimdə Özbəkistanda hərtərəfli islahatların nəticələrinin, sosial və iqtisadi inkişafın şahidi oluram. Şavkat Miromonoviç Mirziyoyev yenidən Özbəkistan Prezidenti seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana edib. Bu, iki ölkə arasında qardaşlıq münasibətlərinin nə dərəcədə dərin olmasını bir daha nümayiş etdirir. İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü kimi Azərbaycan təşkilatın işində fəal iştirak edir. Ötən ay ECO Nazirlər Şurasının iclası Şuşada keçirilib.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulub və bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdə olan münbit sərmayə iqliminin nəticəsidir. Məmnuniyyətlə qeyd etmək istərdik ki, Azərbaycan ECO-nun Təmiz Enerji Mərkəzinin ev sahibi kimi rəsmi olaraq təsdiqlənib.

Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, biz bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetiririk.

Azərbaycanın bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir.

Azərbaycan yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Dünyanın aparıcı yaşıl enerji şirkətləri olan xarici investorlarla imzaladığımız sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacaq. Bu ilin oktyabr ayında Azərbaycanda "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışı olub. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş elektrik stansiyasıdır.

Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Ermənistan Azərbaycanın 20 faizə yaxın ərazisini təqribən 30 il ərzində işğal altında saxlamışdır. 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsindən irəli gələn legitim özünümüdafiə hüququndan istifadə edərək Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalmış dörd qətnamənin icrasını özü təmin etdi.

Bu il sentyabrın 19-20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi.

Biz ərazi bütövlüyümüzü və suverenliyimizi güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq bərpa etmişik və bununla qürur duyuruq.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır və təşkilatın növbəti Zirvə görüşünə ev sahibliyi etməyə hazırdır.

# Milli Məclis Azərbaycanla Türkiyə arasındakı sazişi ratifikasiya edib



Parlamentdə "Azərbaycan ilə Türkiyə Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi" təsdiq edilib.

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə bu sənədi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında müstəsna rol oynayacaq bir sənəd kimi qiymətləndirir: ***"Bu, təkcə yardım kimi deyil, bütövlükdə Türkiyə-Azərbaycan əməkdaşlığının yeni mərhələyə keçməsinin konkret təzahürüdür. Heç şübhəsiz ki, imzalanmış sənədin uğurla reallaşması qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində Kahramanmaraş vilayətində zəlzələ nəticəsində dağıdılmış istehsal, sosial infrastrukturun bərpasını təmin edəcək. Təbii ki, bu hadisə Azərbaycanın Türkiyəyə qardaş köməyi kimi tarixlərdə əbədi yaşayacaqdır"***.

Sənəd Milli Məclisin noyabrın 15-də keçirilən iclasında müzakirəyə çıxarılıb.

Sazişə əsasən, Azərbaycan Kahramanmaraş vilayətində baş verən zəlzələdən zərər çəkmiş bölgələrin birində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzi tikəcək.

Xatırladaq ki, saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanıb.

# 2024-cü ilin dövlət büdcəsi Milli Məclisdə I oxunuşda qəbul edilib

Milli Məclisin plenar iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

Layihədə növbəti il və sonrakı 3 il üzrə çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur.

Bu, cari il üçün təsdiq olunmuş göstərici ilə müqayisədə 3 milyard 409 milyon manat, cari ilin yenidən baxılma ilə əhəmiyyətli dərəcədə artırılıb dövlət büdcəsi xərclərindən 3 milyard, nisbətdə isə 138 milyon manat çoxdur. Xərclərin 93 faizi və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon və ya 0.8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11.4 faiz çox olacaq. Gəlirlərin qeyri-neft sektoru üzrə və neft sektoru üzrə bölgüsünün bərabər olacağı gözlənilir. Dövlət büdcəsinin neft-qaz sektorunda məcmu gəlirləri 17 milyard 164 milyon manat nəzərdə tutulub.

Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 13 milyard 865 milyon manat, cari ilin proqnozu ilə müqayisədə 1 milyard 122 milyon manat və ya 7.5 faiz çox, qeyri-neft sektoru üzrə isə 9 milyard 890 milyon manat, cari illə müqayisədə 905 milyon manat və ya 10.1 faiz çox vəsaitin təmin olunması nəzərdə tutulur. Dövlət Gömrük Komitəsinin xətti ilə növbəti il üçün 5 milyard 900 milyon manat daxilolmalar nəzərdə tutulur və bu cari illə müqayisədə 172 milyon manat və ya 3 faiz çox olacaq. 2024-cü ildə dövlət büdcəsinin sair gəlirləri üzrə 388 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə 831 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır.

Gələn ilin dövlət büdcəsi xərclərinin 51.2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 17.5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu, 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair birinci dövlət proqramının icrası üçün 4 milyard manat, Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə əlavə olaraq 1 milyard 509 milyon manat, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası üçün 249 milyon manat vəsait yönəldiləcək. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə ödəniləcək kommunal xidmətlərə və məcburi dövlət sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsi vəsaiti hesabına maliyyə yardımının göstərilməsi və işğaldan azad edilmiş ərazilərdə müvafiq strukturların yaradılması üçün 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Növbəti ilin icmal büdcəsinin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. Kəsirin ÜDM-ə nisbəti 2.9 faiz təşkil edəcək.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

# Gələn il yaşayış minimumu 270 manat olacaq

2024-cü il üçün yaşayış minimumu haqqında qanun layihəsi Milli Məclisdə birinci oxunuşda təsdiqlənib.

Sənəd Milli Məclisin 2024-cü il üçün büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi ilə bağlı noyabrın 14-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2024-cü il üçün ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilir. Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

Qanun layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılıb və birinci oxunuşda qəbul edilib.

# Qeyri-neft-qaz sektorunda məhsul ixracı 11 faizdən çox artıb

*"Dünya bazarında neftin və qazın qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq, xarici ticarət balansında böyükhəcmli profisit müşahidə olunmaqdadır. Cari ilin 10 ayında 29 milyard ABŞ dollarını ötmüş ixrac ticarət balansının profisiti 15 milyard dollar təşkil edib"*.

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin noyabrın 13-də keçirilən plenar iclasında deyib. Nazir bildirib ki, qeyri-neft-qaz sektorunda məhsul ixracı isə 11 faizdən çox artaraq 2,7 milyard ABŞ dollarını ötüb. Emal olunmuş kənd təsərrüfatı məhsulları çıxılmaqla, qeyri-neft sənaye məhsullarının qeyri-neft qaz ixracında payı 68 faizə çatmaqdadır. Cari ilin doqquz ayında qeyri-neft-qaz sənaye məhsullarının ixracında sənaye zonalarının payı 23 faizə çatıb.

# Gələn il üçün ehtiyac meyarının həddi müəyyənləşib

Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndinə əsasən gələn il üçün ehtiyac meyarının həddi ilə bağlı qanun layihəsini birinci oxunuşda təsdiqləyib.

Sənəd Milli Məclisin 2024-cü il üçün büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi ilə bağlı noyabrın 14-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Qanun layihəsinə əsasən, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2024-cü il üçün ehtiyac meyarının həddi 270 manat məbləğində müəyyənləşdirilir. Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

Sənəd layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edilib.

# Növbəti ildə də xarici amillər ölkədəki inflyasiyaya təsir göstərəcək

*"Növbəti ildə də xarici amillər, dünya bazarında qiymətlərin dinamikası, tərəfdaşlarda inflyasiya prosesləri və iqtisadi fəallıq ölkədəki inflyasiyaya təsir göstərəcək. Məcmu tələbin izafi genişlənməsi, qiymətləri dövlət tərəfindən tənzimlənən məhsulların bahalaşması və inflyasiya gözləntilərinin artması isə qiymət sabitliyi üçün daxili risk mənbəyidir"*.

Bunu Mərkəzi Bankın sədri Taleh Kazımov Milli Məclisin noyabrın 13-də keçirilən plenar iclasında deyib.

O qeyd edib ki, cari ilin qalan dövründə valyuta təklifi tələbi üstələdiyi halda Mərkəzi Bankın valyuta bazarında alışyönlü müdaxiləsi daha da arta bilər. Bu isə pul təklifinin ikirəqəmli artırılmasına səbəb olacaq. Bu, təxminən 20 faizdir.

*"Pul bazasının artımı isə növbəti illər üzrə inflyasiya artırıcı təsir potensialına malikdir. 2024-cü ildə pul siyasətinin ötürücülüyündə məzənnə kanalı başlıca rol oynayacaq. Növbəti ildə də pul siyasəti və likvidliyin idarə olunması çərçivəsinin təkmilləşdirilməsi, banklararası pul bazarının inkişaf etdirilməsi və qısamüddətli faizlərin orta və uzunmüddətli faizlərə təsirlərinin gücləndirilməsi istiqamətində islahat aparmağı planlaşdırırıq. Məzənnə siyasəti yürüdərkən, manatın nominal effektiv məzənnəsinin inflyasiya idxalının məhdudlaşdırılmasındakı rolu nəzərə alınacaq. Növbəti ildə də faiz dəhlizinin parametrlərinin monitor şəraiti və bununla da məcmu tələbə təsir göstərəcəyi gözlənilir. Çünki faiz dəhlizi maliyyə bazarlarının müxtəlif seqmentlərinə təsir göstərir"*, - deyə Mərkəzi Bankın sədri vurğulayıb.

# Gələn il orta aylıq əmək haqqı 980 manata çatacaq

*"2024-cü ildə iqtisadi artımın davam etməsi, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatda şəffaflığın artması, enerji məhsullarının, o cümlədən alternativ enerji məhsullarının ixracının və coğrafiyasının genişlənməsi, nəqliyyat daşımalarının intensivləşməsi üçün münbit sabit siyasi şəraitin mövcudluğu növbəti il üçün bizə yeni imkanlar vəd edir"*.

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili parlamentin noyabrın 13-də keçirilən plenar iclasında deyib.

O bildirib ki, təqdim edilmiş layihədə baza ssenarisində 2024-cü ildə ümumi daxili məhsulun real artım tempinin 2,4 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulunun real artım tempinin isə 4,6 faiz olacağı, artımın əsasən qeyri-neft sektoru hesabına təmin ediləcəyi gözlənilir. Eyni zamanda, qeyri-neft-qaz sektorunun ümumi daxili məhsulda payının 71,2 faizə, orta aylıq əmək haqqının 980 manata çatacağı, orta illik inflyasiyanın 5,3 faiz təşkil edəcəyi, tədiyə balansının cari əməliyyatlar hesabının və xarici ticarət balansının profisitlə olacağı proqnozlaşdırılıb.

Növbəti ildə dövlət büdcəsinə hesablanan vergi və gömrük rüsumları üzrə daxilolmaların ümumi həcmi 19,8 milyard manatı keçəcək.

# "İlk dəfədir ki, büdcə sənədləşməsinə məqsədli proqram və tədbirlərə dair ayrıca sənəd daxil edilib"

Dövlət büdcəsinin parametrləri bir sıra fərziyyələrə və sosial-iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq proqnoz edilir. 2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş məlumatlara əsasən, növbəti ildə ölkə iqtisadiyyatında makroiqtisadi çərçivənin əlverişli olacağı, iqtisadi artım, məqbul inflyasiya, profisitli tədiyə balansı və sabit məzənnənin olacağı nəzərdə tutulub. Eyni zamanda, baza kimi istifadə olunan makroiqtisadi göstəricilərin proqnozlaşdırılmasında "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın strateji məqsədlər üzrə hədəfləri nəzərə alınıb. Aparılan qiymətləndirmələr baza ssenarisində əsas şərtlər yerinə yetiriləcəyi təqdirdə makroiqtisadi çərçivənin reallaşacağını deməyə imkan verir.

Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin plenar iclasında "2024-cü ilin dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı bildirib.

O qeyd edib ki, 2024-cü il üçün dövlət büdcəsinin layihəsi ilə birlikdə təqdim olunan sənədlərdə bir sıra yeniliklər tətbiq edilib, keyfiyyətin artırılması istiqamətində addımlar atılıb, Hesablama Palatasının tövsiyələri nəzərə alınıb. İlk dəfə olaraq, məqsədli proqram və tədbirlərə dair ayrıca sənəd büdcə sənədləşməsinə daxil edilib. Proqramlılıqla bağlı məlumatlar əsasən maliyyə xarakterli olub. Proqramlılığa dair qabaqcıl təcrübədə maliyyə xarakterli göstəricilərlə yanaşı, qeyri-maliyyə xarakterli (səmərəlilik göstəriciləri) məlumatlar da yer alır.

# 2020-ci illə müqayisədə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 40 faizdən çox artıb

"2024-cü il üçün dövlət büdcəsi haqqında qanun layihəsində dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, müvafiq olaraq dövlət büdcəsinin kəsiri 2 milyard 590 milyon manat məbləğində nəzərdə tutulub. Dövlət büdcəsinin xərcləri növbəti il üçün proqnozlaşdırılan ümumi daxili məhsula nisbətdə 31,1 faiz, 2023-cü illə müqayisədə 0,5 faiz bənd çox, gəlirləri 28,9 faiz, 2023-cü illə müqayisədə 0,6 faiz bənd çox, kəsiri isə 2,2 faiz, 2023-cü illə müqayisədə 0,1 faiz bənd az təşkil edəcək".

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin noyabrın 13-də keçirilən plenar iclasında deyib.

Nazir qeyd edib ki, cari ilin iyununda yenidən baxılma ilə 3,4 milyard manat məbləğində və yaxud 10,2 faiz artırılmış, 2023-cü ilin dövlət büdcəsinin xərcləri ilə müqayisədə növbəti ilin dövlət büdcəsinin xərcləri 0,4 faiz artımla proqnozlaşdırılsa da, son beş ildə, yəni, 2020-ci illə müqayisədə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 10 milyard 347 milyon manat və yaxud 40 faizdən çox artıb. 2024-cü ilin dövlət büdcəsi xərclərinin 18,8 milyard manatı və ya 51 faizdən artıq hissəsi məqsədli dövlət proqramlarının və məqsədli tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Bu da dövlət büdcəsi xərclərinin ünvanlılığını və proqram yönümlülüyünü artıracaqdır.

16-22 noyabr 2023-cü il

# Milli intibahımızın baş memarı



**(əvvəli qəzetimizin 41/42-ci saylarında)**

Hazırda bu xətti cənab İlham Əliyev öz fəaliyyətində layiqincə və uğurla tətbiq edir. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin ölkənin regionlarına səfər proqramlarında əsas yeri məhz sakinlərlə görüşlər təşkil edir. Bu səfərlər zamanı müxtəlif obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak etməklə yanaşı, dövlətimizin başçısının ictimaiyyət nümayəndələri ilə ünsiyyəti, onlarla görüşdə göstərdiyi səmimiyyət diqqətdən kənarda qala bilməz. Rəsmiyyətçilik baryerlərini aşaraq, son dərəcə səmimiyyət fonunda keçən bu görüşlər cənab prezidentin vətəndaşlara olan həssas münasibətini nümayiş etdirir.

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi dövlət siyasətinin ayrı-ayrı istiqamətləri də məhz Prezident İlham Əliyevin regionlara səfərləri və burada vətəndaşlarla görüşləri zamanı formalaşıb. Bu görüşlər dövlət siyasətinin daha da təkmilləşməsi üçün yeni imkanlar açıb. Məsələn, Prezident İlham Əliyev bölgələrə ardıcıl səfərlər edir və hər səfərindən, vətəndaşlarla ünsiyyətindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə yeni tədbirlər planını təsdiqləyir. Prezidentin ehtiyat fondundan bu məqsədlə əlavə vəsaitlər ayrılır. Bu isə öz növbəsində həm ölkənin hərtərəfli inkişafını, həm də cəmiyyətimizdəki konsensusun daha da möhkəmləndirilməsini təmin edən vacib amil kimi özünü göstərir.

Prezident İlham Əliyevin regionlara səfəri şəhər və rayonlarda təkcə sosial-iqtisadi inkişafın yeni mərhələsinin başlanğıcı olmayıb, eyni zamanda sadə insanların həyatında dərin və silinməz izlər buraxır. Cənab İlham Əliyevin kütlələrlə ən qısa ünsiyyəti belə onun əksər siyasi keyfiyyətlərini parlaqlığı ilə əks etdirir. Danışıq tempi, nitqindəki rəvanlıq, məntiqi ardıcıllıq, soyuqqanlı reaksiya, təmkin, psixoloji sabitlik Azərbaycan pezidentinin siyasi portretinin aydın cizgiləridir.

### Torpaqlarımızın azad olunması Prezident İlham Əliyevin məqsədöyönlü siyasətin uğurlu nəticəsidir

Prezident İlham Əliyevi xalqa sevdirən cəhətlər dövlətimizin başçısının daim xalqın yanında olması, verdiyi bütün vədləri yerinə yetirməsidir. Yeganə ağrılı problemimiz isə torpaqlarımızın işğal altında olması idi. Prezident İlham Əliyev ilk gündən millətimiz üçün ən ağrılı bəla olan, dövlətimiz üçün kifayət qədər ciddi çağırış hesab edilən erməni işğalının aradan qaldırılması üçün yorulmadan çalışırdı. Dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyini hər zaman belə ifadə edib: *"Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar. Qarabağ Azərbaycandır və nida".*

Əlbəttə, 2003-2020-ci illərdə Azərbaycanın nailiyyətləri, yüsəlişi misilsiz və möhtəşəmdir. Təsadüfi deyil ki, biz artıq tarixin ən güclü Azərbaycanından bəhs edirik. Lakin torpaqlarımızın işğal altında qalması kimi yeganə ağrılı problemimiz vardı və Qarabağsız, Şərqi Zəngəzursuz uğurlarımız sanki tam deyildi. Çünki nisgilli idik, torpaqlarımızın işğal altında olması ilə barışa bilməzdik.

XXI əsrin riskləri çox böyükdür. Qlobal maliyyə-iqtisadi böhranları, hegemon dövlətlərin beynəlxalq hüquqda güc amilini qabartmaları və ədalətsizliyin baş alıb getməsi bir çox ölkələr üçün təhdidedici amilə çevrilsə də, Prezident İlham Əliyevi yolundan döndərə bilmədi və dövlətimizin başçısı öz siyasi xətti ilə bütün təhdidləri neytrallaşdırdı, dünya erməniliyinin kök atmasına baxmayaraq, Qarabağ məsələsində ölkəmizə qarşı beynəlxalq cəbhənin yaranmasına imkan vermədi.

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşında qazandığımız möhtəşəm zəfər bir daha İlham Əliyevin vədinə sadiq, öz fəaliyyətini dövlətə və xalqa xidmət məramı üzərində quran lider olduğunu sübuta yetirdi. Şanlı ordumuz elə həmin gün başlatdığı əks-hücum əməliyyatları ilə düşməni ilk andan işğal olunmuş ərazilərimizdən qovub çıxardı. Savaşın ilk günündən bütün dünya Azərbaycanın gücünü, ordumuzun döyüş əzmini gördü. 44 gün davam edən müharibədə 30 ilə yaxın işğal altında olan əzəli torpaqlarımız azad edildi.

Vətən müharibəsində qazanılan qələbə İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətin uğurlu nəticəsi idi. Belə ki, bu illərdə cənab prezidentin atdığı addımlar, həyata keçirdiyi genişmiqyaslı tədbirlər torpaqlarımızın azad edilməsinə istiqamətlənmiş kompleks siyasətdən xəbər verir. Ermənistanın məğlubiyyəti, torpaqlarımızın azad edilməsi ilə nəticələnən bu müharibə həm də milli həmrəyliyimizin təntənəsi, xalqımızın öz rəhbərinin ətrafında sıx birləşməsinin nümayişi oldu.

2020-ci il noyabrın 10-da imzalanan bəyanatla Azərbaycanın qələbəsi və Ermənistanın məğlubiyyəti bütün dünyaya bəyan olundu. Şuşanın azad edildiyi gün – 8 noyabr tariximizə Qələbə Günü kimi həkk olundu. Bu qələbə Azərbaycanın son əsrlərdəki ən böyük zəfəri oldu. Şah İsmayılın, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını işğaldan azad etdi.

Prezident İlham Əliyevin dediyi kimi, hazırlaşdıq və düşməni məğlub etdik: ***"Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz".***

Bu şərəfli salnamənin davamı kimi ötən ay keçirilən antiterror tədbirlərinin nəticəsi olaraq ordumuz Qarabağdakı erməni separatizminin də kökünü kəsdi.

Məlumdur ki, Ermənistanın 2020-ci il 10 noyabr bəyanatı ilə üzərinə götürdüyü öhdəliklərdən biri məğlub ordusunun qalıqlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağdan çıxarması idi. Lakin Ermənistan bu dövrdə öhdəliyini yerinə yetirmir, üstəlik Qarabağda olan silahlı terrorçu dəstələr Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa-quruculuq işlərinə ciddi maneələr yaradır, təxribatlar törədirdilər. Xatırladım ki, hələ bu ilin may ayında Prezident İlham Əliyev Laçından həmin növbəti xəbərdarlığını edərək demişdi ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımızın olduğunu hər kəs yaxşı bilir.

Amma xəstə təfəkkürə malik olmaları 44 günlük müharibəyə qədər və müharibə günlərində olduğu kimi indi də Ermənistan rəhbərliyinə və Qarabağdakı separatçılara reallıqları dərk etməyə imkan vermədi. Elə buna görə də bu dəfə də onları "dəmir yumruq" başa saldı. Sentyabrın 19-20-də keçirilən və cəmi 23 saat davam edən antiterror tədbirləri ilə Qarabağdakı erməni silahlı dəstələri darmadağın edildilər. Sağ qalanların isə ağ bayraq qaldırmaqdan başqa yolları qalmadı. Bu tarixi qələbə nəticəsində Prezident İlham Əliyev tarixi torpaqlarımız olan Qarabağ üzərində Azərbaycanın suverenliyini tam təmin etdi. Bununla da dünya erməniliyinin Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması ideyası tarixdən birdəfəlik silindi. Erməni ideoloqlarının 1988-ci ildən dünyaya təlqin etməyə çalışdıqları "miatsum" ideologiyası darmadağın edildi. Bu hadisə ilə Azərbaycan dövləti yalnız Ermənistanı deyil, burada ikinci erməni dövlətini yaratmaq istəyən Fransanı məğlubiyyətə uğratdı. Bir daha təsdiq olundu ki, öz milli maraqlarını təmin edən Azərbaycan dövlətinin qarşısını heç bir qüvvə ala bilməz.

İlham Əliyev son 200 ildə ilk dəfə olaraq işğal olunmuş torpaqlarımızı azad edən böyük sərkərdədir. İlham Əliyev tariximizə şanlı Qələbəni yazan liderdir. Ona görə torpaqlarımızın azad edilməsi İlham Əliyevə olan inam və etimadı qat-qat artırdı. Eyni zamanda, bu zəfər Azərbaycanın bundan sonrakı inkişafı üçün yeni perspektivlər açıb. Bu yolda xalqımız cənab İlham Əliyevin ətrafında bundan sonra da sıx səfərbər olacaq və tariximizə yeni, möhtəşəm uğurlar həkk olunacaq.

### İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edir

Azərbaycanın işğal altında olan ərazilərindəki bütün maddi dəyərlərin, bütün şəhər və kəndlərimizin vandallığa məruz qalması, dağıdılması hələ Vətən müharibəsindən əvvəl ölkə ictimaiyyətinə məlum idi. Sadəcə həmin ərazilər düşmənin nəzarətində olduğundan bununla bağlı faktları d ünyaya çatdırmaq mümkün deyildi. Əslində beynəlxalq təşkilatlar vəziyyəti çox yaxşı bilirdilər, sadəcə görməzlikdən gəlirdilər. Halbuki işğal dövründə iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası Qarabağ və Şərqi Zəngəzura göndərilmişdi, amma onlar da Minsk qrupu kimi ikili standartlardan çıxış edərək, işğal altındakı Azərbaycan ərazilərinin vandallığa məruz qalmasını etiraf etməkdən uzaq olmuşdular.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra ermənilərin bu ərazilərdə həyata keçirdikləri vandallıq da dünyaya əyan oldu. Şəhər və kəndlərimiz azad olunduqca əyani şəkildə aydın oldu ki, işğalçı Ermənistan yaşayış məntəqələrimizdə daşı daş üstə qoymayıb. 44 günlük müharibə zamanı Azərbaycan ordusu 300-dək yaşayış məntəqəsini işğaldan azad etdi. Bunların tam əksəriyyəti yerlə-yeksan edilib. Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı kimi şəhərlərdən, o cümlədən yüzlərlə kənddən, demək olar əsər-əlamət qalmayıb. Qalan binalarda isə erməni hərbçiləri yaşayıblar. Ağdam şəhərində məscid binasını ermənilər hərbi məqsədlər üçün istifadə etdiklərinə görə dağıtmayıblar.

O cümlədən yeraltı və yerüstü sərvətlərimizi 30 il ərzində qanunsuz şəkildə istismar edib, oğurlayıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olub, meşələr, qiymətli ağac növləri kəsilib, tarixi orta əsrlərə qədər uzanan ağaclar məhv edilib. Yaşı əsrlərə söykənən Zəngilanın çinar meşəlikləri artıq yoxdur.

Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycan tarixində yeni dövrün başlanğıcı oldu. Bu dövrün milli prioriteti işğaldan azad edilmiş ərazilərimizin – Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşünün təmin olunmasıdır. Prezident İlham Əliyevin həm də milli ideya olaraq qarşıya qoyduğu bu vəzifə hazırda sürətlə, yüksək dinamizmlə və keyfiyyətlə yerinə yetirilməkdədir. Təsadüfi deyildir ki, cəmi 3 ilə yaxın dövr ərzində azad edilmiş ərazilərdə xeyli dəyişikliklər baş verib. Demək olar ki, azad edilmiş bütün şəhərlərdə nəhəng tikinti-quruculuq işləri gedir. Zəngilanın Ağalı və Tərtərin Talış kəndlərinin, Laçının Zabux kəndinin, habelə Laçın və Füzuli şəhərlərinin sakinləri artıq öz doğma evlərinə qayıdıblar.

O cümlədən, yol-nəqliyyat infrastrukturunun yaradılması istiqamətində bir neçə nəhəng layihənin icrası başa çatıb. Hazırda bütün Qarabağ və Şərqi Zəngəzurun elektrik enerjisi ilə dayanıqlı təminatı prosesi davam edir. Eyni zamanda, regionun ermənilər tərəfindən vandallığa məruz qalmış flora və faunasının da bərpası diqqət mərkəzindədir. Bir sözlə, azad edilmiş ərazilərimizin bərpası kompleks şəkildə həyata keçirilir.

Qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı həyata keçirilən kompleks tədbirlər azad olunmuş ərazilərin yenidən qurulmasının Azərbaycanda milli ideyaya çevrildiyini, Azərbaycan dövlətinin quruculuq əzmini, siyasi qətiyyətini və iqtisadi gücünü nümayiş etdirir. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycanda dövlət və milli səviyyədə qarşıda duran vəzifələri yeniləyib, yeni hədəflər müəyyən edib. Təsadüfi deyil ki, indi Azərbaycan dövləti Livan boyda, dörd Lüksemburq boyda bir ərazidə bərpa və quruculuq işləri aparır. Başqa cür ifadə etsək, 10 min kvadratkilometrdən çox olan ərazidə hərtərəfli infrastruktur qurulur, yollar çəkilir, tunellər inşa olunur, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, "ağıllı şəhər"lər, "ağıllı kənd"lər salınır. Eyni zamanda, barbar düşmənin vəhşicəsinə dağıtdığı tarixi, dini, mədəni abidələrimiz bərpa olunur.

Təbii ki, bütün bunlar bu ərazilərin yenidən qurulması ilə bağlı güclü siyasi iradənin olmasının göstəricisidir. İndiyədək görülmüş işlərin istiqamətləri və əhatə dairəsi bu cür düşünməyə əsas verir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza mütəmadi səfərləri də göstərir ki, dövlət başçısı bu məsələni xüsusi diqqət və nəzarətində saxlayır. Dövlət başçısının hər səfəri yeni layihələrin təməlinin qoyulması, şəhərlərin baş planlarının təsdiq edilməsi ilə əlamətdar olur.

2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən **"Mən hər bir azərbaycanlının prezidenti olacağam"** deyən cənab İlham Əliyev ötən 20 ildə cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi lider kimi daim uğurlamızın təminatçısı olmuşdur. Ötən 20 ilin reallıqları Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir. Geridə qoyduğumuz hər bir ilin yekunları təsdiq edir ki, Prezident İlham Əliyev ulu öndərin ən layiqli davamçısı olaraq onun başladığı, təməlini qoyduğu taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə irəli aparır, ölkəmizin şərəfli tarixini yazır. Məhz Heydər Əliyevin dühasından və qüdrətli zəkasından ilham alan milli inkişaf strategiyası Azərbaycanın müstəqillik və inkişaf yolunda inamla addımlamasını təmin edir.

Bütövlükdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur göstərir ki, bu 20 il həm də Azərbaycanın öz dövlətçilik tarixində ən yüksək inkişaf mərhələsinə qədəm qoyduğu dövrdür.

**Akademik**
**Ziyad Səmədzadə**



# Azərbaycan və Özbəkistan birgə istehsalın təşviqini müzakirə edib



İqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratovla görüşüb. Görüşdə ikitərəfli münasibətlərin inkişafına xüsusi önəm verildiyi vurğulanıb. İqtisadiyyat Nazirliyinin yaydığı məlumata görə, Laziz Kudratov ölkəsinin Azərbaycanla iqtisadi-ticarət əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyini vurğulayıb, işgüzar münasibətlərin, Özbəkistan və Azərbaycan regionları arasında əlaqələrin qurulmasının qarşılıqlı faydalı tərəfdaşlığımızı daha da gücləndirəcəyini bildirib, iqtisadi münasibətlərin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər ticarət dövriyyəsinin davamlı artımının dəstəklənməsi, ticarət-iqtisadi və investisiya üzrə əməkdaşlığa dair Yol Xəritəsinin icrası, birgə istehsalın, energetika və sənaye sahələrində tərəfdaşlığın təşviqi barədə fikir mübadiləsi aparıblar.

# Böyük Qayıdışa dair məşğulluq məsələləri müzakirə olunub



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapan məşğulluq məsələləri ilə bağlı müzakirə aparılıb.

Mərkəzdən bildirilib ki, İİTKM-in icraçı direktoru Vüsal Qasımlı, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəylinin iştirak etdiyi görüşdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aktiv işçi qüvvəsi tələb edən sahələr müzakirə olunub. Bu sahələr əsasən dövlət və özəl olmaqla bir neçə istiqamət üzrə təsnifatlandırılıb. Bundan başqa, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 2024-cü ildə tikintisi planlaşdırılan obyektlər, köçürülən əhalinin peşə hazırlığı, pilot layihələrin icrası və s. digər əhəmiyyətli məsələlərdən danışılıb.

# Milli pul nişanlarının reproduksiyasını tənzimləyən yeni qaydalar təsdiqlənib

Azərbaycanda milli pul nişanlarının reproduksiyasını (bənzədilmiş surətdə hazırlanması) tənzimləyən yeni qaydalar təsdiq edilib.

Azərbaycan Mərkəzi Bankından (AMB) bildirilib ki, ölkədə nağd pul tədavülünün effektiv və çevik idarə edilməsi çərçivəsində Mərkəzi Bankın əsas hədəflərdən biri milli pul nişanlarının saxtalaşdırılmasına qarşı tədbirlərin gücləndirilməsidir. Bu istiqamətdə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq Mərkəzi Bankın İdarə Heyətinin 2023-cü il 25 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Pul nişanlarının reproduksiyası Qaydası" noyabrın 3-dən qüvvəyə minib. Qayda ilə milli kağız və metal pul nişanlarının reproduksiyasına dair tələblər, o cümlədən pulların reproduksiyası zamanı ölçülərinə dair tələblər, elektron reproduksiyaya qarşı keyfiyyət parametrləri müəyyən edilir.

Reproduksiya qaydalarının tələblərini pozmaqla hazırlanmış pul nişanları saxta hesab olunur.

# Azərbaycanda sənaye istehsalı 1,6 faiz azalıb

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən bu ilin yanvar-oktyabr aylarında 55,6 milyard manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz az sənaye məhsulu istehsal edilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, neft-qaz sektorunda məhsul istehsalı 2,4 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 7,4 faiz artıb.

Sənaye məhsulunun 68,1 faizi mədənçıxarma sektorunda, 26,6 faizi emal sektorunda, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 8,1 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 3,6 faiz artıb.



# Cari ildə ÜDM istehsalı artıb




Cari ilin yanvar-oktyabr aylarında ölkədə 100,9 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox ümumi daxili məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,3 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 3,1 faiz artıb. ÜDM istehsalının 41,3 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,0 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,0 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 9938,7 manata bərabər olub.

# Türk iş adamları sənaye zonalarında yaradılan biznes imkanlarından yararlanmağa dəvət edilib

***"Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının (DEİK) Türkiyə-Azərbaycan Əməkdaşlıq Şurasının İcraiyyə Komitəsi Qarabağda mövcud sənaye parklarında həyata keçirilən biznes layihələrində iştirakda maraqlıdır".***



İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, bu barədə Komitənin sədri Kemal Koloğlu noyabrın 14-də agentliyin İdarə Heyəti sədrinin müavini Seymur Adıgözəlovla görüşdə deyib.

Seymur Adıgözəlov nümayəndə heyətinə ölkəmizdə mövcud sənaye zonaları, burada iş adamları üçün yaradılan investisiya imkanları barədə məlumat verib, sənaye zonalarının təqdimatı nümayiş etdirilib.

Kemal Koloğlu Azərbaycanda fəaliyyət göstərən sənaye zonalarında, əsasən də işğaldan azad edilmiş ərazilərdə mövcud sənaye parklarında həyata keçirilən biznes layihələrində iştirak etməkdə və müvafiq sahələrdə təcrübələrini bölüşməkdə maraqlı olduqlarını diqqətə çatdırıb.

# Əsas kapitala yönəldilmiş vəsait artıb



Cari ilin yanvar-oktyabr aylarında əsas kapitala 14 milyard 258 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 17,1 faiz çox vəsait yönəldilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 20,4 faiz, qeyri -neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 15,4 faiz artıb.

İstifadə olunmuş vəsaitin 8 milyard 414,6 milyon manatı və ya 59 faizi məhsul istehsalı sahələrinə, 5 milyard 108 milyon manatı (35,8 faizi) xidmət sahələrinə, 735,4 milyon manatı (5,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 45,5 faiz, büdcə vəsaitləri 40,8 faiz, əhalinin şəxsi vəsaitləri 6,3 faiz, bank kreditləri 2,5 faiz, digər vəsaitlər isə 4,9 faiz təşkil edib.

# Gələn il pensiyaların nə qədər artırılacağı açıqlanıb

***"Həssas qrupdan olan insanların maddi rifah halının yaxşılaşdırılması, həmin şəxsləri inflyasiyanın təsirlərindən qorumaq, habelə onların tibbi-sosial reabilitasiyasının və sanator-kurort müalicəsinin davamlı və keyfiyyətli təşkil edilməsi məqsədilə sosial ödənişlər mütəmadi artırılmalıdır".***

Bu təkliflə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentin noyabrın 14-də keçirilən plenar iclasında "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi barədə danışarkən deyib.

Komitə sədri bildirib ki, fondun büdcə layihəsinin vahid büdcə təsnifatına uyğun tərtib edilməsi məqsədilə vahid büdcə təsnifatının təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməli, pensiya sistemi üzrə sığorta prinsiplərinin, habelə elektron innovativ həllərin tətbiqinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilməlidir. M.Quliyev qeyd edib ki, əmək pensiyalarının orta aylıq məbləğinin 2023-cü ildə 436 manat təşkil edəcəyi gözlənilir, 2024-cü ildə isə 483 manat olacağı proqnozlaşdırılır.

Qeyd edək ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır. Bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4% çoxdur.

# Maliyyə Nazirliyi 90 milyon manat da cəlb etdi



4 noyabr 2023-cü il tarixində Bakı Fond Birjasında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin AZ0201040281 ISIN-li, 90 milyon manat həcmində, 728 gün tədavül müddətli dövlət ortamüddətli istiqrazlarının (DOİ) yerləşdirilməsi üzrə hərrac keçirilib. Hərrac zamanı 26 investor tərəfindən qiymət intervalı 94.7991 (8.8959%) manat və 97.6209 (7.3%) manat olan 55 sifariş təqdim edilmişdir. Maliyyə Nazirliyinin qərarına əsasən istiqrazların kəsmə qiyməti 96.0165 (8.2%) manat, orta ölçülmüş qiyməti isə 96.3292 (8.023%) manat müəyyən edilmişdir.

Sifarişlərin nominal qiymətlə ümumi məbləği 247 milyon 308 min 700 manat, yerləşdirilmiş həcmi isə 90 milyon manat təşkil edilmişdir.

# Azərbaycanda orta əmək haqqı illik 92,4 manat artıb

İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə məlumatlar açıqlanıb.

Marja.az Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, 2023-cü ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,2 faiz artaraq 919,8 manat olmuşdur.

Qeyd edək ki, 2022-ci ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,4 faiz artaraq 827,4 manat olmuşdu.

2023-cü ilin yanvar-avqust aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 923 manat olmuşdu.

2023-cü il oktyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 719,8 min nəfər olmuş, onlardan 890,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 828,9 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

# Кто готовит новый удар по Азербайджану?



**Самед Сеидов, председатель Комитета Милли Меджлиса по международным вопросам.**

В результате блестящей победы Азербайджана в 44-дневной Отечественной войне и антитеррористических мероприятий, продлившихся всего 23 часа, на Южном Кавказе установилась новая реальность - отныне на суверенных территориях Азербайджанской Республики нет ни сепаратистского режима, ни вооруженных формирований Армении.

«Мы полностью восстановили нашу территориальную целостность и суверенитет и выполнили все задачи, которые ставили перед собой, - подчеркнул президент Ильхам Алиев, выступая на параде Победы в освобожденном Ханкенди.

- Теперь открывается новая страница истории Азербайджана – ее мирное строительство и созидание во благо как азербайджанского народа, так и стран и народов всего региона Южного Кавказа». Акцентировав внимание на том, что Азербайджан не хочет войны, глава азербайджанского государства определил приоритетное направление нашей внешней политики - достижение устойчивого и всеобъемлющего мира.

**Три главных вопроса**

Но, с другой стороны, как его достичь, если Армения - источник наших тридцатилетних несчастий, повинная в оккупации, этнических чистках и военных преступлениях против азербайджанского народа, не меняет своей риторики и демонстративно пытается изменить ситуацию, но уже не на войне, где она потерпела полное фиаско, а на дипломатическом и общественно-политическом полях?

Сами по себе действия Армении вновь и вновь подтверждают, что сепаратистский режим так называемой «НКР», орудовавший в Карабахе на протяжении 30 лет, был всего лишь марионеткой, которой манипулировали другие, более грозные и коварные силы, до сих пор не утратившие своего влияния.

Сегодня, мысленно возвращаясь к трагическим событиям трех последних десятилетий, мы отчетливо понимаем, что не было на наших суверенных территориях никакого «национально-освободительного движения», не было «осознания своей национальной идентичности», а было лишь грубое вмешательство во внутренние дела и оккупация с целью уничтожить Азербайджан, стереть его как суверенное государство с политической карты мира.

Только теперь, после разгрома и позорного бегства сепаратистов в Армению, после того, как обратился в тлен и прах миф о «великом и непоколебимом духе Арцаха», становится понятными не только масштабы и уровень угроз, с которыми столкнулся Азербайджан.

Сегодня становится очевидным, что корень зла все еще реально существуют и работает против нашего народа, но уже другими средствами и способами.

Именно в этой связи возникают вопросы, на которые необходимо ответить хотя бы в общих чертах:

***1. Почему Азербайджан, как независимое и стабильное государство, продолжает оставаться объектом нетерпимости и неприятия со стороны некоторых западных кругов?***

***2. Почему, дважды подписав акт о капитуляции, Армения не меняет своей политики в отношении Азербайджана, представляя ее теперь в формате так называемых «мирных инициатив»?***

***3. Как Азербайджану форсировать переход к мирному созиданию, если в современной глобальной политике мир становится крайне «невыгодным бизнесом»?***

Начну с первого вопроса.

**Карабах, как арена геополитических игр**

Принято считать, что конфликт вокруг Карабаха был выгоден России, которая, периодически поддерживая то одну, то другую сторону, обеспечивала себе и присутствие в регионе Южного Кавказа, и ощутимое влияние на Азербайджан и Армению. Наличие «карабахского козыря» позволяло России удерживать страны региона в сфере своего постоянного контроля.Да, в таком подходе, безусловно, есть смысл. Но разве этим занималась только Россия? События последних лет четко показали, что в своих геополитических планах не менее «продуктивно» действовала и Исламская Республика Иран.





**Впрочем, и это не все!**

Аналогичной позиции придерживался и коллективный Запад, который проводил линию «политического бартера», требуя от Азербайджана в обмен на свою поддержку территориальных уступок Республике Армения.

Запад называл эту политику «концепцией компромиссного мира», в рамках которой Азербайджан должен был согласиться с потерей в пользу Армении части своих территорий, получая в качестве компенсации… свои же территории, оккупированные Арменией.

Фактически в переговорном процессе, сторонами которого были Армения и Азербайджан, обсуждался только Азербайджан и исключительно его территория. Что по умолчанию выводило за скобки саму Армению как первопричину конфликта.

Словом, ситуация напоминала мизансцену с участием рыночных «наперсточников», в которой разыгрывают тебя и подставного клиента, обеспечивая выигрыш главному игроку.

Таким образом, Карабах превратился в арену политических игр России, Ирана, США, Европы, словом, всех, кто имел интересы на Южном Кавказе. Правда, с одной принципиальной оговоркой: эти игры не должны были затрагивать Армению, их предметом являлась исключительно территория Азербайджана.

**И никак иначе!**

Таким образом, участники длившегося десятилетиями переговорного процесса сделали все и даже больше, чтобы ни в коем случае не пострадали геополитические «авторитет» и «неприкосновенность» Армении.

И только благодаря победе в 44-дневной войне была создана новая архитектура Южного Кавказа, в рамках которой никто уже не мог рассматривать Азербайджан, как объект геополитических игр. Ибо осенью 2020 года Азербайджан стал субъектом, во многом определяющим ситуацию в регионе.

**Армения, как буферная зона**

А вот роль «объекта» перешла к Армении. Впервые в истории лишившись «политической неприкосновенности», она предстала в крайне невыгодном для себя свете деструктивного, разбалансированного государства, чье объективное место в архитектуре послевоенного Южного Кавказа выглядит весьма непрезентабельно.

И вот теперь я возвращаюсь ко второму вопросу: почему Армения, дважды подписав акты о капитуляции (ни для кого ни секрет, что режим «НКР», как уже сказано выше, был всего лишь марионеткой Армении) перевела войну с Азербайджаном в дипломатическую плоскость?

Исторически проект «Республики Армения» был создан, как буферная зона на южных рубежах Российской империи, а затем и Советского Союза, которая рассматривалась, как плацдарм для дальнейшего усиления и расширения влияния. Другими словами, одним из краеугольных камней государственности Армении был экспансионизм, захватничество, расширение и оккупации земель вокруг «плацдарма».

Царская Россия, а впоследствии большевики понимали, что любая попытка сделать это за счет Турции могла привести к новой мировой войне. А потому Армения могла себе позволить в отношении Турции лишь «декларативную экспансию», отобразив на своем гербе суверенную территорию соседнего государства.

Также сомнительно с точки зрения агрессии выглядел и соседний Иран, с которым у Армении всегда были особые отношения.

Оставались только Грузия и Азербайджан. Но Грузия, во-первых, была родиной Иосифа Сталина. Кроме того, хотя коммунисты старались это не афишировать, она была православный страной, что исключало Грузию из списка территориальных претензий Еревана.

В результате весь потенциал экспансионизма, заложенный в Армению, был направлен на захват исконно азербайджанских земель. Зангезур, Карабах, семь районов Азербайджана – вот тот кровавый путь, по которому уверенно шла Армения. И пошла бы дальше, не будь во главе Азербайджана ее общенационального лидера Гейдара Алиева, на смену которому пришел его сын и политический преемник Ильхам Алиев. В итоге два этих лидера перезагрузили и переформатировали весь Южный Кавказ и, как следствие, регионы Восточной Европы, Ближнего Востока и Центральной Азии.

Геополитическая «перезагрузка» региона, ставшая реальностью после победы Азербайджана в 44-дневной Отечественной войне, лишила Армению ее главного инструмента агрессии и экспансии – марионеточного сепаратистского режима в Карабахе. Президент и Верховный главнокомандующий Ильхам Алиев не только разбил армию Армении, по сути, был уничтожен захватнический потенциал этой страны.

Но при этом философия экспансионизма Армении никогда не делась! Государственность Армении, выстроенная на принципах территориальных претензий к другим странам, а также исключительности армянской нации, по-прежнему жива. А потому, лишившись реальных инструментов для захвата чужих территорий, Армения перешла к грубой, провокационной и, по сути, экспансионистской дипломатии.

**А кто вторгается в азербайджанский сад?**

К великому сожалению, эта политика вполне устраивает западных покровителей Армении, которые, не имея возможности напрямую влиять на Азербайджан, охотно пользуются «поводами» и активно поддерживают нынешнюю риторику лидеров Армении. Запад представляет Армению в образе демократичной, свободной и ориентированной на Европу страны. Не случайно посол США в Ереване недавно назвала Армению «маяком демократии на Южном Кавказе», подчеркивая полное приятие политики Никола Пашинина.

Кроме того, Запад активнейшим образом ретранслирует на всех международных площадках нарратив Еревана о его якобы искреннем стремлении к миру с Азербайджаном и «агрессивных планах» Баку, который, маскируясь призывами к мирному сосуществованию, на самом деле хочет «поглотить территорию Армении».

И, наконец, последний вопрос: почему Запад в подавляющем большинстве случаев так критичен к Азербайджану? Причем не только из-за поддержки Армении, но и в связи с характерным для западной цивилизации отношением ко всему нехристианскому, что в их ментальном восприятии является чем-то неестественным?

«Приватизировав» общечеловеческие ценности и в определенном смысле приписывая себе право на такое проявление чувств, как «человечность», политические элиты Запада, выражаясь образно, «обесчеловечили» весь остальной мир, высокомерно выдавая порции «человечности» только тем, кто в той или иной мере соответствует их ментальности. Или, как минимум, пытается показать, что соответствует.

В этой связи весьма характерны слова еврокомиссара по внешней политике Евросоюза Жозефа Борреля, назвавшего в одном из своих выступлений Европу «садом», а окружающее ее мир – «джунглями». В понимании Борреля в этих «джунглях» живут дикари, стремящиеся, по его выражению, «вторгнуться в этот сад». Мусульмане, мигранты, необразованные и малокультурные люди, которые не понимают ни демократии, ни толерантности, ни законов – это и есть та категория людей, к которым господин Боррель отнес окружающий Европу мир и его граждан.

И, возможно, у еврокомиссара было бы достаточно аргументов в защиту своей, прямо скажем, не слишком толерантной теории (благо примеров несостоявшихся или превращенных в несостоятельные государства на планете, и в особенности в исламском мире, хоть отбавляй). **Если бы не… Азербайджан.** Именно Азербайджан, объединив усилия с братской Турцией, бросил вызов управляющим «садовым хозяйством» Европы. Да так успешно, что желание наладить связи с нашей страной стали проявлять государства как из самой Европы, так и с Ближнего Востока, Центральной Азии и других регионов планеты.

Запад, потративший для сдерживания развития арабо-мусульманского мира колоссальные финансовые и духовные усилия, проморгал появление на мировой авансцене новых государств тюркского мира, несущих в себе общечеловеческие ценности всех философских школ и религиозных конфессий, которые объединяют народы на огромном пространстве от Тихого океана до Атлантического. И среди этих государств Азербайджан занял особое, я бы даже сказал, исключительное место. Главным образом благодаря президенту Ильхаму Алиеву – искушенному и мудрому политику, который сумел обойти все расставленные для него капканы, провести успешные государственные реформы, создать не только одну из лучших армий на Востоке, но и очень сильную экономику, углубить в азербайджанском обществе светские традиции, толерантность, уважение к женщинам и представителям национальных меньшинств.

Переняв у Европы и западного мира лучшее, Ильхам Алиев в то же время научился не доверять им полностью, не раскрывая перед геополитическими игроками свои стратегические планы. Глава государства в высшей степени благоразумно создал экономику без кабальной финансовой зависимости от мировых финансовых институтов, а армию - по лучшим стандартам НАТО, но без членства в этой организации. Ильхам Алиев объединил мощь Турции и Азербайджана на равных принципах Шушинской декларации, доказав тем самым, что над ним не довлеет психология «старшего брата».

Президент Алиев разрушил все принятые на Западе устои геополитических центров, сумев в исторически минимальные сроки стать самостоятельным центром силы и инициатором не только усиления Движение неприсоединения, но и тюркского мира как принципиально нового феномена современной геополитики.

Понимающие это западные аналитики, к огромному сожалению, выбрали для общения с Азербайджаном привычный для себя, но абсолютно неприемлемый для нас путь.

Пытаясь различными способами подчинить Азербайджан своему влиянию и не добиваясь результатов, они пытаются остановить наше развития, обвиняют нас в неадекватности и ошибочности проводимой политики, открыто блокируют, а в определенном смысле разрушают отношения с нами, зачастую в ущерб собственным интересам. Последние действия Франции, Испании, Бельгии, Нидерландов, Чехии и ряда других государств в отношении Азербайджана это наглядно доказывают.

Я понимаю, что это звучит странно.

И тем не менее, не могу не сказать о том, что, победив в войне и восстановив полный суверенитет над своими территориями, Азербайджан нарушил планы тех, кто посредством войн, «цветных» революций и «организованного» хаоса управляют миром. Следовательно, эти же силы будут делать все, чтобы наш регион вновь погрузился в пучину войны и кровопролития.

**Что уже происходит!**

Разве не на это направлены действия Франции или многочисленные резолюции и заявления некоторых западных стран и политиков, очевидным образом усложняющие обстановку на Южном Кавказе?

Добившись победы и восстановив справедливость, мы обнаружили, что современной системе международных отношений более выгодны конфликты, нежели их разрешение. Ибо посредством конфликтов определенные круги успешно решают свои задачи, получая рычаги влияния и управления.

Никто в современной истории не решал свои конфликты так полноценно и наглядно, как это сделал Азербайджан. Да, народ Азербайджана заплатил за этот исторический опыт очень дорогую цену. Но это наш опыт и наш путь. На котором Азербайджан будет доминировать и впредь.

**haqqin.az**
**12 ноября 2023.**

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib



***Dünyada iqtisadiyyatın inkişafı yolunda bir sıra problemlər hələ də qalmaqdadır ki, bunlardan da biri cinayət yolu ilə əmlakın əldə edilməsi və ondan istifadə hallarının mövcudluğudur.***

Çox önəmlidir ki, belə halların yolverilməzliyini davamlı olaraq qeyd edən Prezident İlham Əliyevin 2023-cü il 28 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş *“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”* bu istiqamətdə çox mühüm kompleks tədbirlərin reallaşdırılmasını hədəfləyir.

Fikrimizcə, keçirilmiş konfrans da bu sahədə konkret bir addım kimi dəyərləndirilə bilər.

Bu baxımdan, 2023-cü il 27 oktyabr tarixində Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş *“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri”* mövzusunda elmi-praktik konfrans maliyyə nəzarətinin effektivlik meyarlarının hazırlanması və tətbiqi, mütərəqqi seçmə prosedurlarından istifadə edilməsi, ən əsası isə nəzarətin keyfiyyətinin yüksəldilməsi və təsirliliyinin təmin olunmasına öz töhfəsini vermiş olacaqdır.

Keçirilmiş konfransda müvafiq qurumların nümayəndələrinin iştirakı ilə bu məqsədlərə daha səmərəli şəkildə çatmağın yolları araşdırılmışdır.

Konfransın keçirilməsində məqsəd *“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında”* Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli və *“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında”* Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 783-VIQD nömrəli qanunlarının qüvvəyə minməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli sərəncamı ilə təsdiq edilmiş *“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”*nın nəzarət qurumları və öhdəlik daşıyan şəxslər qarşısında yaratdığı yeni vəzifələrin icrası istiqamətində işgüzar müzakirələrin aparılması və tövsiyələr hazırlamaqdan ibarət olub.

Tədbirdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Hesablama Palatası, Dövlət Vergi Xidməti, Mərkəzi Bank, Dövlət Statistika Komitəsi, Vəkillər Kollegiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Banklar Assosiasiyası və digər qurumlar yüksək səviyyədə təmsil olunub.

Tədbirə ölkəmizin dövlət qurumlarını, aparıcı elm-təhsil müəssisələrini, kütləvi-informasiya vasitələrini təmsil edən nümayəndələr, Auditorlar Palatasının kollektivi və üzvləri olmaqla ümumilikdə 100-dən çox iştirakçı qatılıb.

**Konfransı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə və Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov açaraq tədbirin əhəmiyyətindən bəhs ediblər.**








*„...Milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.”*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Açılış nitqi ilə çıxış edən Zaur Fətizadə bildirib ki, cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev ili” elan edilmişdir. Müsəlman dünyasının ilk demokratik respublikasını qurmuş Azərbaycan xalqı çoxəsrlik tarixə malik dövlətçilik ənənələrini 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etməklə dirçəltdi. Həmin dövrdə gedən siyasi proseslər, hərc-mərclik, anarxiya, özbaşnalıq ölkəmizi çox çətin vəziyyətə salmış, daxili çəkişmələr, Ermənistanın təcavüzü Azərbaycanın gələcəyini sual altında qoymuşdu. Azərbaycanın müstəqil dövlət kimi dünya xəritəsindən silinmə təhlükəsi yarandığı 1993-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə vəziyyət tamamilə dəyişdi, böyük səylər nəticəsində Azərbaycanda inkişaf və rifah dövrü başlandı.

“Heydər Əliyev ili”ndə həyata keçirilən çoxsaylı elmi, mədəni, sosial, ictimai və digər mühüm tədbirlərin tərkibində iştirakçısı olduğumuz konfransın təşkil edilməsi təsadüfi deyildir. Belə ki, ulu öndər Heydər Əliyev respublikamızda cinayətkarlıq, ekstremizm və terrorçuluqla mübarizə strategiyasının banisi olmuş və onun uğurlu siyasəti nəticəsində Azərbaycan beynəlxalq antiterror koalisiyasının fəal iştirakçılarından birinə çevrilmiş, qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədilə qəbul edilmiş konvensiyalara qoşulmuşdur.

Həmçinin, cinayət yolu ilə əmlak əldə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi üçün əsas vasitələrdən biri olan narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi hesab edilmiş və bu sahədə dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda cinayətkarlıq, ekstremizm və terrorçuluqla mübarizə strategiyası, açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsi, maliyyə şəffaflığının yüksəldilməsi, vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və ictimai nəzarətin gücləndirilməsi, habelə açıq hökumətin təşviqi Prezident İlham Əliyevin yürütdüyü siyasətin də təməlini təşkil edir.

Bu məqsədlə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tərkibində aidiyyəti hüquq mühafizə orqanlarının, dövlət qurumlarının və ictimai birliklərin vəzifəli şəxslərindən ibarət Koordinasiya Şurası yaradılmış və fəaliyyətinin əsas istiqamətləri kimi milli qanunvericiliyin bu sahə üzrə beynəlxalq standartlara uyğunlaşdırılması, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə üzrə birgə fəaliyyətin təşkili, Milli Risk Qiymətləndirilməsinin dövri qaydada aparılması müəyyən olunmuşdur.

Koordinasiya Şurasının effektiv və uğurlu fəaliyyəti nəticəsində Maliyyə Monitorinqi Xidməti ilə aidiyyatı hüquq mühafizə orqanları, nəzarət qurumları və öhdəlik daşıyan şəxslər arasında effektiv məlumat mübadiləsi təmin edilmiş, bu sahədə milli risk qiymətləndirilməsi aparılmış, onun əsasında müəyyən edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə Milli Fəaliyyət Planı hazırlanmış, qanunvericiliyin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üçün yeni qanunlar qəbul edilərək qüvvəyə minmişdir.

Auditorlar Palatası ilə birlikdə təşkil olunmuş bu konfransın əsas məqsədi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən hüquq mühafizə orqanları, nəzarət qurumları, özəl sektordan olan mütəxəssislər, tədqiqatçılar arasında bilik, fikir və təcrübə mübadiləsinin aparılması üçün yeni platformanın yaradılmasıdır. Əminəm ki, tədbir zamanı yaratdığımız qarşılıqlı əlaqələr bu sahədə üzləşdiyimiz problemləri daha dərindən dərk etməyə, onların həlli üçün yeni, effektiv mexanizmlərin müəyyən edilməsinə kömək edəcəkdir.

*“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğunmaliyyələşdirilməsinə qarşı mübarizə haqqında”* Azərbaycan Respublikasının Qanununa əsasən əmlakın qanunsuz yollarla əldə edilməsi, terror aktının hazırlanması, təşkili, törədilməsi, maliyyələşdirilməsi üçün istifadə olunması ilə bağlı şübhəli hallar (11.2 və 21.1), xüsusilə xarici dövlətlərin siyasi nüfuzlu şəxslərinin, onların yaxın qohumlarının və ya yaxın münasibətdə olduğu şəxslərin əməliyyatları haqqında məlumatlar (11.3.) auditor xidməti göstərən şəxslər tərəfindən Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməlidir.

Qeyd etmək lazımdır ki, Auditorlar Palatası Koordinasiya Şurasının tərkibində aktiv iştirak edir. Hesab edirəm ki, konfransda bu sahədə həyata keçirilməli tədbirlər barədə geniş müzakirələrin aparılması mövcud problemlərin daha dəqiq başa düşülməsinə, effektiv mexanizmlərin müəyyən olunmasına şərait yaratmaqla, auditor xidməti göstərən şəxslərin mübarizə sisteminə aktiv formada qoşulması ilə nəticələnəcəkdir.

Qeyd etmək lazımdır ki, Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatası arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin təşkili, zəruri tədbirlərin həyata keçirilməsi,

öhdəlik daşıyan şəxslər üzərində effektiv nəzarətin təmin olunması sahəsində də faydalı əməkdaşlıq mövcuddur.

Məlum olduğu kimi, hazırda ölkəmizin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin Avropa Şurasının MONEYVAL Komitəsi tərəfindən V raund qiymətləndirilməsi aparılır. Qiymətləndirməyə hazırlıq mərhələsində Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatası bu sahədə islahatların aparılması, aidiyyatı qanunvericilik aktlarında dəyişikliklərin edilməsi, institusional mühitin qiymətləndirilməsi zamanı effektivliyin artırılması üçün tədbirlər həyata keçirilməsi işlərində öz üzərlərinə düşən vəzifələri icra etmək üçün bütün səylərini səfərbər etmişlər.

Son olaraq Z.Fətizadə bu sahədə mövcud problemlərin qarşısını almaq məqsədilə dövlət və özəl sektorun qarşılıqlı əməkdaşlıq perspektivlərini qeyd edib, görülə biləcək işlərin əhəmiyyətindən danışıb.

Daha sonra professor Vahid Novruzov çıxış edərək, konfransın işinə müvəffəqiyyətlər arzulayıb.

O, ***"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı"***nın bir tərəfdən dövlət nəzarət qurumlarının öz aralarında, digər tərəfdən isə dövlət və qeyri-dövlət nəzarəti orqanları arasında qarşılıqlı əlaqələrin qaydaya salınması və təkmilləşdirilməsi işini aktuallaşdırdığını söyləyib. V. Novruzov qeyd edib ki, Milli Fəaliyyət Planı öz əhatəliliyi və təkmilliyi baxımından çox əhəmiyyətli sənəd olmaqla, cəmiyyətimiz üçün həyati vacib olan dörd istiqaməti özündə ehtiva edir:

*- Birincisi, ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə səylərin gücləndirilməsi;*

*- İkincisi, bu sahədə müxtəlif iştirakçılar – məhkəmə və cinayət təqibi orqanları, nəzarət orqanları, digər səlahiyyətli qurumlar, habelə özəl sektor arasında əməkdaşlıq imkanlarının artırılması;*

*- Üçüncüsü, ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə imkanlarının məhdudlaşdırılması;*

*- Dördüncüsü, nəzərdə tutulan tədbirlərin sistemli və əlaqəli şəkildə həyata keçirilməsinə əlverişli şəraitin yaradılması.*

Həllini gözləyən aktual problemlərdən biri də aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin idarə olunması əsasında təyin edilməsinin təşkili problemidir. Azərbaycanda şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində beynəlxalq audit və beynəlxalq mühasibat uçotu standartlarına keçidin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Həyata keçirilmiş kompleks tədbirlər yeni dövrün iqtisadi çağırışlarını nəzərə almaqla, ölkədə maliyyə-uçot sisteminin beynəlxalq tələblər əsasında təkmilləşdirilməsinə, iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya imkanlarının gücləndirilməsinə şərait yaradıb.

Həllini gözləyən aktual problemlər: Aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi və yoxlamaların risklərin idarə edilməsi əsasında təyin edilməsinin təşkili; Maliyyə nəzarətinin effektivlik meyarlarının hazırlanması və tətbiqi; Nəzarətin özünün keyfiyyətinin yüksəldilməsi və təsirliliyinin təmin olunması kimi istiqamətlər bugünkü konfransımızın mövzu dairəsinə daxil olan məsələlərdəndir.

Yeni ödəniş üsullarına geniş yol açan rəqəmsallaşma şəraitində nəzarət orqanlarının vəzifələrinin daha da mürəkkəbləşməsi və onların əməkdaşlarının peşə hazırlıq səviyyəsinin müasir tələblər baxımından yüksəldilməsi yoxlayıcılar və öhdəlik daşıyan şəxslər, o cümlədən auditorlar üçün illik təlim planının hazırlanmasını və bu plan əsasında təlimlərin keçirilməsini zəruri edir.

Bizim üçün daha bir mühüm və aktual məsələ Milli Fəaliyyət Planının 8.5.2-ci bəndində nəzərdə tutulmuş ***"Hesabına dövlət büdcəsi vəsaitinin daxil olduğu sahibkarlıq subyektlərinin və onların subpodratçılarının fəaliyyətinin sistematik, fasiləsiz auditinin aparılması"*** da öz metodoloji və təşkilati həllini tapmalıdır.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə yanaşı, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə daha kəsərli aparılmalıdır. Son vaxtlarda dünyada, o cümlədən Azərbaycanda baş verən hadisələrlə əlaqədar olaraq, bəzi ölkələr tərəfindən terrorçuluqdan ölkəmizin daxili işlərinə qarışmaq aləti kimi istifadə olunması cəhdlərinin şahidiyik. Sosial, siyasi, iqtisadi, humanitar və digər amillərin pərdələnmiş cəhdləri terrorizmin əlaməti kimi dəyərləndirilməli və onların qarşısı bundan sonra da qətiyyətlə alınmalıdır.

Bu baxımdan cinayət yolu ilə əldə olunmuş aktivlərin qaytarılması sahəsində nəzarət qanunvericiliyinin təkmilləşdirilməsi günün vacib məsələlərindəndir.

Məxfilik tələblərinin bəzi sahələrdə yumşaldılması və daxili nəzarətin və daxili auditin tətbiqinə dair mövcud qanunvericiliyin icra vəziyyəti də yüksəldilməlidir.

Şübhə yoxdur ki, bu kimi addımlar Milli Fəaliyyət Planında qarşıya qoyulan problemlərin həllinə, ölkəmizdə sosial-iqtisadi münasibətlərin daha sağlam əsaslar üzərində formalaşmasına, iqtisadi-maliyyə fəaliyyətində şəffaflığın tam təmin edilməsinə şərait yaradan ciddi amilə çevriləcəkdir.

Yeri gəlmişkən, ölkə prezidenti 2023-cü il 15 sentyabr tarixində Hesablama Palatası və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Bakıda keçirilmiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanladığı müraciətdə qeyd etmişdir:

***"Müasir dövrümüzün qlobal çağırışlarına effektiv və çevik reaksiya verilməsi, eləcə də hazırkı dönəmdə Azərbaycan üçün ən önəmli məsələlərdən olan işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işləri ölkəmizdə maliyyə sektorunda aparılan islahatların daha da gücləndirilməsini, maliyyə imkanlarının səfərbər olunmasını labüd edir. Dövlətin maliyyə resurslarının qorunub saxlanılması, onlardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün bu sahədə nizam-intizamın möhkəmləndirilməsi, şəffaflığın artırılması və dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi vacibdir. Həmçinin, milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır."***

Ölkə auditorları üçün həm şərəfli, həm də yüksək məsuliyyət doğuran bir haldır ki, Milli Fəaliyyət Planında digər nəzarət orqanları ilə birlikdə Auditorlar Palatasına da çox mühüm vəzifələrin icrası həvalə olunmuşdur.

O, son olaraq vurğulayıb ki, ümumiyyətlə, ölkə auditorlarının istər şəffaflığın artırılmasında, korrupsiya və kölgə iqtisadiyyatına qarşı mübarizədə, istərsə də Milli Fəaliyyət Planında nəzərdə tutulmuş vəzifələrin icrası ilə əlaqədar Azərbaycan Prezidentinin göstərişlərinə uyğun olaraq, hazırda Auditorlar Palatasının kollektivi və üzvləri bu mühüm vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirmək əzmindədirlər ki, bu da dövlət başçısının ölkə auditorlarının fəaliyyətinə verdiyi yüksək dəyərə layiq olmaq zərurətindən irəli gəlir.

**Sonra Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev** ***"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə son dəyişikliklər, yeni çağırışlar və maliyyə institutları"*** mövzusunda çıxış edərək bildirib ki, ƏL/TMM sahəsi üzrə Qanunun tələblərinə əsasən bir sıra yeni qaydalar təsdiq edilmişdir.




Maliyyə və qeyri-maliyyət institutları, habelə auditorlar, dini qurumlar, QHT-lər "hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı"nda hər hansı subyektin hədəfli maliyyə sanksiyasına cəlb edilməsi barədə məlumat dərc edildiyi andan qanunda müəyyən edilmiş aktivləri heç bir xəbərdarlıq etmədən dondurmalı və bu barədə Dövlət Təhlükəsizlik Xidmətinə və Maliyyə Monitorinqi orqanına məlumat verməlidir.

Konfransın davamı olaraq, **Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin direktoru Nurlan Babayev** ***"ƏL/TMM üzrə auditorlar üçün şübhəlilik indikatorları"*** mövzusunda çıxış edərək, Azərbaycan üçün xarakterik olan hüquqi şəxslərdən cinayət məqsədləri üçün sui-istifadə üsulları olan benefisiar mülkiyyətçinin gizlədilməsi, vəsaitlərin nağdlaşdırılması, yalançı əqdlərin bağlanması və vergidən yayınma sxemlərinin qurulması hallarından, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması üsulları olan yalançı əqdlərin bağlanmasından, şell şirkətlərdən, nominal təsisçi və direktorlardan istifadə edilməsindən, fiziki şəxslərin kart hesablarına köçürmələrindən və s. bəhs edib.

**Sonra Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, professor Zahid Məmmədov** ***"Terrorizmin maliyyələşdirilməsi və ona qarşı mübarizədə nəzarət orqanları: yeni çağırışlar, trendlər və imkanlar"*** mövzusunda çıxış edərək vurğulayıb ki, beynəlxalq terrorizm və onun maliyyələşdirilməsi məsələləri beynəlxalq və milli təhlükəsizlik orqanlarının daim diqqət mərkəzindədir.




Ölkəmizdə aparılan çoxşaxəli dövlət quruculuğu, iqtisadi və məhkəmə-hüquq sistemi islahatlarının tərkib hissəsi kimi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində də ötən dövr ərzində bir sıra işlər görülmüş və mühüm nəticələr əldə olunmuşdur. Bu sahədə beynəlxalq standartları müəyyən edən FATF tövsiyələrinə uyğun olaraq yeni qanunlar qəbul edilmiş, ölkədaxili əməkdaşlığın təmin edilməsi üçün yeni mexanizmlər formalaşdırılmış, ixtisaslaşmış institutların fəaliyyət effektivliyinin artırılması üçün addımlar atılmış, həmçinin müvafiq sahədə beynəlxalq əməkdaşlıq imkanları genişləndirilmişdir.

**Konfransın davamı olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə monitorinqi departamentinin 2-ci monitorinq şöbəsinin rəisi Vüsal Həsənov** ***"Maliyyə institutlarının ƏL/TMM üzrə nəzarət və audit tədbirləri"*** mövzusunda çıxış edərək, maliyyə institutlarının ƏL/TMM-in tətbiqində rolundan, onların nəzarət tədbirlərindən və maliyyə institutlarının ƏL/TMM üzrə audit fəaliyyətlərindən bəhs edib.




**Daha sonra Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Saleh Məmmədov** ***"Beynəlxalq terrorizm və iqtisadi cinayətlərə qarşı mübarizədə süni intellektin istifadəsi"*** mövzusunda çıxış edərək, beynəlxalq terrorizmə və iqtisadi cinayətlərə qarşı mübarizədə süni intellektin rolu, dövlət idarəçiliyində süni intellektin iştirakı, beynəlxalq konvensiya və çoxtərəfli müqavilələrin süni intellekt vasitəsilə tam rəqəmsallaşdırılması, beynəlxalq idarəetmənin müasir xarakteristikası, Azərbaycanda süni intelllektin istifadəsi: nailiyyətlər, çatışmazlıqlar və təkmilləşdirmə istiqamətləri kimi sahələrdən geniş bəhs edib.

**Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Elşad Səmədzadə** ***"Maliyyə bazarı şəffaflığının artırılması istiqamətləri"*** mövzusunda çıxış edərək, maliyyə bazarının tərifini verərək, onun ayrı-ayrı kateqoriyaları üzrə həcmindən,




FATF-nin yaradılmasının əhəmiyyətindən, çirkli pulların daha çox qiyməti çətin müəyyən olunan aktivlər, idman və mərc oyunları, lotoreyalar vasitəsilə yuyulmasından bəhs edib.

Konfransın davamı olaraq **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin aparıcı məsləhətçisi Yusif Məmmədov** ***"Vergi inzibatçılığının təkmilləşdirilməsinin gəlirlərin şəffaflaşdırılmasında rolu"*** mövzusunda çıxış edərək, vergitutma və gəlirlər arasında mühüm əlaqə zəncirinin qurulmasından, gəlirlərin səmərəli yığılması vasitəsilə vergidən yayınma hallarının azaldılması, ədalətli və şəffaf vergi sisteminin təmin edilməsi və əmlakın qanunsuz əldə edilməsinə qarşı mübarizənin effektivliyindən danışıb.




Sonra **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə sahəsində xidmətlər baş idarəsinin Nəzarət-analitik iş üzrə qrup rəhbəri Leyla Bərxudarzadə** "ƏL/TMM sahəsində Ədliyyə Nazirliyi tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda çıxış edib.

**Daha sonra konfransın proqramına uyğun olaraq Auditorlar Palatasının üzvü, sərbəst auditor Şamxal Kərimov** ***"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə müştəri uyğunluğu tədbirləri"*** mövzusunda çıxış edərək, öhdəlik daşıyan şəxslərin müştəri uyğunluğu tədbirləri çərçivəsində görməli olduğu işlər, öhdəlik daşıyan şəxslərin işgüzar münasibətlərə müştəri uyğunluğu tədbirlərini davamlı olaraq tətbiq etməli olduğu hallar, fiziki şəxslərə münasibətdə eyniləşdirmə tədbirləri, fərdi sahibkarlara münasibətdə eyniləşdirmə tədbirləri, siyasi nüfuzlu şəxslər, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslərlə əməliyyatlar, hüquqi şəxslərə və xarici hüquqi təsisatlara münasibətdə eyniləşdirmə tədbirləri kimi sahələrdən bəhs edib.

**Daha sonra "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın üzvü Əliməmməd Nuriyev** ***"ƏL/TM riskləri və vətəndaş cəmiyyəti: Azərbaycan təcrübəsinin təhlili"*** mövzusunda çıxış edərək, FATF yanaşmasına, beynəlxalq və milli səviyyədə ƏL/TMM sahəsində vətəndaş cəmiyyəti təşkilatlarının roluna, ƏL/TM siyasətlərinə vətəndaş cəmiyyəti təşkilatlarının təsirinə və QHT-lərin narahatlığına diqqət çəkib.

**Məruzələrin yekununda "KPMG Audit Azərbaycan" MMC-nin Audit üzrə partnyoru Nəsibə Muradxanova** ***"Komplayns sahəsində audit yanaşması"*** mövzusunda çıxış edərək, şübhəli əməliyyatlar barədə Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim etməli olan qurumlardan, komplayns sahəsinə auditorların yanaşmasından, auditin aparılmasına dair əsas məsələlərdən bəhs edib və çirkli pulların yuyulması ilə mübarizə prosedurlarının həyata keçirilməsi zamanı ən çox aşkar edilən hallar kimi müştərilərdən vəsaitlərin mənbəyi sənədlərinin əldə edilməsi və vəsaitlərin mənbəyinin dəqiqləşdirilməsi üçün həyata keçirilən prosedurların olmaması, siyasi xadimlərlə tranzaksiyaların identifikasiyası, icrası və monitorinqi üçün müvafiq nəzarət prosedurları və proseslərinin olmaması, müştərilərin qəbulu zamanı onların uyğun olmayan risk təsnifatı, tranzaksiyaların əllə monitorinqi, fəaliyyət, profil, ölkə və digər yüksək risk faktorları əsasında tranzaksiyaların avtomatik risk qiymətləndirməsinin olmaması kimi məsələləri vurğulayıb.

Sonda konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, habelə təqdim edilən materialların toplu şəklində nəşr etdirilməsi və tövsiyələrin hazırlanması qərara alınıb.

Ümid edirik ki, keçirilmiş konfransımızda səsləndirilən fikirlər əsasında hazırlanacaq tövsiyələr ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının vəzifələrinin daha da ciddi yerinə yetirilməsinə öz müsbət töhfəsini verəcək.




*Fəqan Qarayev, Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müşaviri*

*Şəfiqə Əsgərova, Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini*

*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Məhəmməd Əsədov (1941-1991)

***Azərbaycan Respublikasının dövlət xadimi, milis general-mayoru, Azərbaycan Respublikasının müdafiə və dövlət təhlükəsizliyi məsələləri üzrə Dövlət müşaviri (1991), Azərbaycanın daxili işlər naziri (1990-1991) Məhəmməd Nəbi oğlu Əsədov 1941-ci il dekabr ayının 5-də Zəngilan rayonunun Baharlı kəndində anadan olub. O, Baharlı kəndində dördüncü sinfi bitirəndən sonra təhsilini Zəngilan rayonunun Mincivan qəsəbəsində yerləşən orta məktəbdə davam etdirmiş, 1958-ci ildə orta məktəbi bitirib, həmin ildə Bakı Statistika Texnikumuna daxil olmuşdur.***



1960-cı ildə həmin texnikumu müvəffəqiyyətlə başa vurub və Zəngilan rayonunda inspektor vəzifəsində çalışıb. 1961-ci ildə ordu sıralarına çağırılıb və 1964-cü ilə qədər orduda xidmət edib. 1964-cü ildə ordu sıralarından tərxis olunduqdan sonra Sumqayıt şəhərinə üz tutub və 1 saylı trestdə betonçu kimi işləyib. 1965-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Maliyyə və kredit fakültəsinə daxil olub. 1965-ci ildə 2 saylı trestdə mühasib işləyib, 1967-1968-ci illərdə Plan şöbəsinin müdiri vəzifəsində çalışıb. 1968-ci ildə Məhəmməd Əsədov Sumqayıt Şəhər Partiya Komitəsinin Sənaye şöbəsinə təlimatçı vəzifəsinə irəli çəkilib.

Məhəmməd Əsədov 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Maliyyə və kredit ixtisası üzrə tam kursunu bitirib. 1973-1975-ci illərdə onu Sumqayıt Şəhər Partiya Komitəsində sənaye şöbəsinin müdiri, 1975-1978-ci illərdə isə təşkilat şöbəsinin müdiri vəzifəsinə təyin ediblər. 1978-ci ildən 1980-ci ilə qədər M.Əsədov Ağsu Rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində fəaliyyət göstərib. M.Əsədov Moskva Təhlükəsizlik Akademiyasına göndərilib. 1982-ci ildə akademiyanı qırmızı diplomla başa vurub. Azərbaycan Təhlükəsizlik Nazirliyində məsul vəzifədə çalışıb. 1983-1986-cı illərdə Jdanov Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləyib. 1986-1988-ci illərdə M.Əsədov Mərkəzi Komitədə yüksək vəzifədə işləyəndə dəfələrlə Xankəndidə ermənilərin istədikləri kimi hərəkət etdiklərinin şahidi olmuşdur.

İşlədiyi müddətdə göstərdiyi işgüzarlığına, biliyinə, qabiliyyətinə görə onu Mərkəzi Komitəyə dəvət edirlər və 1986-cı ildən 1988-ci ilə qədər M.Əsədov inzibati orqanlar şöbəsinə müdirlik edir. 1988-1989-cu illərdə Ağdaş Rayon Partiya Komitəsinin, 1989-1990-cı illərdə Quba Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində fədakarlıqla çalışır.

**Qarabağ müharibəsi zamanı**

Məhəmməd Əsədov 1990-cı ilin may ayında Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsinə təyin edilir. Azərbaycanın Ermənistanla sərhəd rayonlarını gəzərək erməni təcavüzünü gözləri ilə görən nazir M.Əsədov həyəcan təbili çalır, təcili tədbirlərin görülməsi üçün Moskvaya – SSRİ Daxili İşlər Nazirliyinə müraciət ünvanlayır, asayişi qorumaq üçün silah-sursat tələb edirdi.

O, tez bir zamanda Xüsusi Təyinatlı Milis Dəstəsini yaradır. M.Əsədov Xocalı hava limanında ermənilərin gediş-gəlişinə nəzarəti gücləndirmək üçün DİN-in qüvvələrini səfərbər edir. DİN ölkənin çıxış yollarını ciddi nəzarətdə saxlayırdı.

1990-cı il noyabr ayının 5-də M.Əsədova general-mayor rütbəsi verilir. 1991-ci ilin noyabr ayına qədər daxili işlər naziri vəzifəsində çalışır. M.Əsədov göstərdiyi şücaətə görə müşavir kimi yüksək vəzifəyə təyin edilir. M.Əsədov 1991-ci ilin noyabrında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasını tezləşdirmək, ordu quruculuğu işində mərkəzlə hüquq-mühafizə orqanları arasında birgə işin təşkilini həyata keçirmək üçün dövlət müşaviri təyin olunur.

**Qarakənd faciəsi**

M.Əsədov 1991-ci il noyabrın 20-də Xocavənd rayonu yaxınlığında bir sıra dövlət xadimləri ilə birgə içində olduğu Mi-8 vertolyotunun erməni hərbi birləşmələri tərəfindən vurulması nəticəsində həlak olmuşdur.

**Xatirəsi**

Qarabağ müharibəsinin ilk günlərində Famil Mehdi tərəfindən yaradılmış "Nicat" cəmiyyətinin təsis etdiyi mükafat və Bakıda Xətai rayon 29 saylı tam orta məktəb onun adını daşıyır. Məktəbin həyətində Məhəmməd Əsədovun büstü ucaldılıb. Zəngilan, Sumqayıt, Ağsu, Beyləqan, Ağdaş, Quba və Bakıda bir neçə təhsil müəssisəsi, gəmi, küçə və xiyaban, idarə və müəssisə onun adını daşıyır.

Şair Oqtay Zəngilanlı Məhəmməd Əsədova "Ağlayır ana Zəngilan" şeirini həsr etmişdir.




# Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndələri Hərbi Qənimətlər Parkını ziyarət ediblər

8 Noyabr – Zəfər günü münasibətilə noyabrın 7-də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının rəhbər şəxsləri Birinci və İkinci Qarabağ müharibəsinin iştirakçıları və digər nümayəndələr ilə birlikdə Hərbi Qənimətlər Parkını ziyarət ediblər.




Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavinləri, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev və Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının Baş həkimi Bəxtiyar Musayev və 20 nəfərə yaxın əməkdaş Hərbi Qənimətlər Parkına gələrək, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə xalqımızın mərd oğulları tərəfindən döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşməndən ələ keçirilən hərbi qənimətlərlə, eləcə də parkda sərgilənən ağır texnikalar, tanklar, döyüş maşınları, hərbi nəqliyyat və düşmənin dinc əhalini hədəf alaraq endirdiyi raketlərin qalıqları ilə tanış olublar.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov bildirib ki, Hərbi Qənimətlər parkı bizim üçün erməni vəhşiliyinin, hərbi cinayətin əyani sübutudur. Bu gün bizə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha gözümüz önündə canlandırmağa imkan yaradır. Göstərir ki, bizim qəhrəman oğullarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında birləşərək, canı-qanı bahasına döyüşərək, qan tökərək tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa etdi, düşməni torpaqlarımızdan qovdu. İndi Hərbi Qənimətlər Parkına gələn hər kəs dövlətimizin, Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü, iradəsini görür. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı qələbə tariximizə qızıl hərflərlə həkk olundu. Hərbi Qənimətlər Parkı məhz bu qələbə tarixçəsinin gələcək nəsillərə ötürülməsi və əyani formada nümayiş etdirilməsi baxımından yaradılmışdır. Parkda müharibə dövründə xalqımızın igid əsgərləri tərəfindən ələ keçirilən hərbi texnikanın bir qismi, ağır texnikalar, tanklar, döyüş maşınları, hərbi nəqliyyat və düşmənin dinc əhalini hədəf alaraq endirdiyi raketlərin qalıqları da sərgilənir.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**




**Azəri Light və Brent markalı neftin bir barelinin 10 – 15 noyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə sabiq baş nazir
**RƏHİM HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Əli Məsimli sabiq baş nazir
**RƏHİM HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Vahid Əhmədov sabiq baş nazir
**RƏHİM HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə sabiq baş nazir
**RƏHİM HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İbrahim Mustafayev və Vaqif Cəlilov sabiq baş nazir
**RƏHİM HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov,
Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov,
Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov,
Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov,
Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500